Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Ucalığa dogru

**Yazıçı, publisist Mustafa Çəmənlinin 70-illik yubileyi münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2017**

**Tərtibçi:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Ucalığa dogru:**metodik vəsait / tərt.ed. K.Səmədzadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-29s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Tərtibçidən:

Tanınmış yazıçı, publisist və naşir Mustafa Çəmənlinin 70 illik yubileyinin qeyd olunması ərəfəsindəyik. Bu münasibətlə respublikamızın bir sıra mədəniyyət ocaqlarında tədbirlər planının həyata keçirilməsi nəzərdə tutulmuşdur. Gəlin sizinlə birlikdə yazıçı Mustafa Çəmənlinin həyat və yaradıcılığına nəzər salaq. Oxucuların hüsn-rəğbətini qazanmış "Xallı gürzə", "Səs qərib olmur" və "Fred Asif " kimi kitabların müəllifi Mustafa Çəmənli ədəbi yaradıcılığa 1972-ci ildə "Ləpirlər" adlı hekayəsi ilə başlamışdır. Onun "Mənim dünyamın adamları" adlı kitabı isə 1982-ci ildə işıq üzü görmüşdür.

1985-ci ildə povest və hekayələrdən ibarət "İtirilmiş səs", 1989-cu ildə isə Azərbaycannın xalq artisti Şövkət Ələkbərovaya həsr olunmuş "Şövkət Ələkbərova", "Nəğməli xatirələr" adlı bədii-publisist kitabları işıq üzü görüb.

Mustafa Çəmənlinin 70 illik yubileyi ilə bağlı hazırladığımız vəsaiti oxucuların ixtiyarına veririk. Ümüdvarıq ki, bu metodiki vəsait kitabxanaçıların istifadə edə biləcəkləri vəsaitlərdən biri olacaq. Vəsaitdə yazıçı Mustafa Çəmənlinin həyat və yaradıcılığı və əsərlərindən nümunələr verilmişdir. Vəsait iki hissədən ibarətdir.

I hissə: Həyat və yaradıcılığı:

II hissə: Yubiley tədbirlərinin keçirilməsi:

# Bölmə I:
# Həyat və yaradıcılığı:

***...Əslində, biz bu dünyaya şəkil çəkdirməyə gəlirik. İntəhası biz gərək fotoobyektivin yaddaşında qalan əksimizlə dünyanın yaddaşında qalan şəklimizi qarışıq salmayaq. Fotoqrafa biz ömrümüz boyu şəkil çəkdirə bilərik, amma zaman hər kəsin şəkilini bircə dəfə çəkir. Biz gərək ömrümüzü elə yaşayaq ki, dünyanın fotoyaddaşına şəklimiz eybəcər düşməsin!***

***Mustafa Çəmənli***

Azərbaycan nəsrində, publisistikasında, mədəniyyətində özünəməxsus xidməti və yeri olan Mustafa Çəmənli ömrünün 70-ci pilləsinə qalxmaqdadır. Öz sözü ilə desək: “Köksümdə Xanın səsi ilə dolu muğam adlı böyük bir dünya var və mən o dünyanın sonu görünməyən ağappaq cığırı ilə üz tutub gedirəm. Bu cığırla hələ nə qədər yol gedəcəyimi bilmirəm. Bircə onu bilirəm ki, o, məni şəfqətə, məhəbbətə, ucalığa aparır...”

Ciddi, nasir, bacarıqlı naşir və səriştəli bir insan kimi tanıdığımız Mustafa Çəmənli çiynini həmişə ağır, bəlkə də heç kimin girişmədiyi işin altına verən, yazıb başa çatdırmaq üçün onlarla kitaba, tarixi məxəzə, yüzlərlə sənədə müraciət edən zəhmətkeş yazıçılardan biridir. Bu keyfiyyət onu bütün yaradıcılığı boyu izləyir: qədim tarixi mövzuya müraciət edəndə, yaxın keçmişimizi qələmə alanda, lap elə müasir mövzulara üz tutanda da. Bu baxımdan Mustafa Cəmənlinin ən yaddaqalan və əhəmiyyətini uzun müddət saxlayacaq üç kitabının adlarını çəkmək istərdik: “Xallı gürzə”, “Səs qərib olmur”, “Fred Asif”. Bu kitablar və onlarda toplanan əsərlərin heç biri yalnız həyat təcrübəsinin, istedaddan doğan yazıçı təxəllüyünün, fantaziyasının məhsulu deyil, bu üç kitabın hər biri, hər şeydən əvvəl, ağır yazıçı əməyi hesabına başa gəlib.

Öz sanbalına, əhatə etdiyi dövrün mürəkkəbliyinə, genişliyinə, surətlərin və hadisələrin sayına, müxtəlifliyinə görə “Xallı gürzə” romanı yaşadığımız keşməkeşli son iyirmi ilin yaddaqalan, seçilən əsərlərindən biridir. Bu əsəri yazarkən Mustafa Çəmənli neçə illər Qarabağ xanlığının tarixini araşdırmış, öyrənmiş, bütün “Qarabağnamələr”i ələkdən keçirmişdir. Tarixi məxəzləri bir tədqiqatçı kimi öyrənməsi və təsvir etdiyi dövrü yaxşı bilməsi ona mövzu daxilində və ətrafında sərbəst gəzişməyə imkan vermişdir. Keçmişimizə inamlı ekskurs, Şuşa qalasının yaranma tarixi, Qarabağ xanlığının təməl daşının qoyulması romanda tarixi həqiqətlərə sədaqət hissilə göstərilmişdir. İdeologi basqılar nəticəsində Sovet ədəbiyyatında təhriflərə məruz qalmış bir çox tarixi şəxsiyyətlər, o cümlədən, Pənah xan və İbrahim xan kimi tarixi simalar romanda öz rəngində, öz mühitində olduğu kimi təsvir edildiklərindən hər iki obraz həqiqi rəğbət oyadır. Güclü yazıcı fəhni, istedadlı nasir səriştəsi ilə bügünkü bəlalarımızın tarixi köklərini, səbəblərini, “erməni xəstəliyi”nin dəyişməz xislətini yazıçı bacarıqla göstərə bilmişdir.

Mustafa Çəmənli 50 illik yaradıcılıq dövründə ardıcıl olaraq musiqiçilərimizin, müğənnilərimizin, instrumental ifaçılarımızın yaradıcılığını bir təqdidatçı, musiqiçi səriştəsi ilə izləmiş, onların sənətinin təbliğatçısı, araşdırıcısı olmuşdur. Azərbaycan radiosunun qızıl fondunda onun ifaçı musiqiçilərimizin yaradıcılıq portretlərini ifadə edən əlliyə qədər konsert-oçerki saxlanılır və vaxtaşırı səsləndirilir. Gözəl musiqi duyumu, hafizəsi, muğam və xalq mahnılarımıza dərindən bələd olması ona hər hansı bir müğənninin, ifaçının sənətini obyektiv və düzgün qiymətləndirməyə, əsl sənəti saxta sənətdən ayırmağa imkan verir. Bir çox unudulmuş sənətkarlarımızın yaradıcılıq taleyinə işıq salmaq, onları üzə çıxarıb çağdaş nəslə çatdırmaq işində Mustafa Çəmənlinin xidmətləri həqiqətən böyükdür. Onun “Səs qərib olmur” kitabına daxil edilmiş hekayə-oçerkləri neçə-neçə sənətkarın

yaradıcılığını, konsert fəaliyyətini işıqlandırır. İncə lirizmlə, böyük səmimiyyətlə və obyektə məhəbbətlə yazılmış bu əsərlərin hər biri diqqətəlayiqdir. Məşədi Məmməd Fərzəliyev, Xanlar Haqverdiyev və Cahan Talışinskaya ilə bağlı yazılar isə əsl tədqiqat əsərləridir. Yazıçının bir qramafon valı, lent yazısı, təsadüfi söhbət əsasinda apardığı axtarışlar dinləyici yaddaşından silinib getmiş neçə sənətkarın səsini yenidən musiqisevərlərə qaytarmiş, onların xatirələrini, nəcib işini əbədiləşdirmişdir. Bu xeyirxah işini Mustafa Çəmənli bu gün də davam etdirir.

Sənədlərə, olmuş hadisələrə və həqiqətlərə əsaslanaraq yazılan əsərlər Mustafa Çəmənli yaradıcılığında mühüm, həlledici keyfiyyət kəsb edir ki, yazıçı bunu "Fred Asif" sənədli povesti ilə bir daha təsdiqlədi. Müəllifin böyük məhəbbətlə yazdığı "Fred Asif" bütün ağdamlılarin, Qarabağ müharibəsindən sonra isə bütün Azərbaycanın Fred Asif kimi tanıdığı milli qəhrəman Asif Məhərrəmova ucaltdığı ilk və ədəbi abidədir. Qəhrəman oğlumuz, fəxrimiz Asif haqqında gələcəkdə də əsərlər yazılacaq, amma Mustafa Çəmənlinin "Fred Asif"inin bütün sonra yazılanlara qaynaq olacağına şübhəmiz yoxdur. Kitabın bədii-sənədli əsər kimi yazıldığını nəzərə alsaq, müəllifin həyat həqiqətindən yayınmamaq, obrazın tam dolğunluğunu təmin etmək üçün nə qədər zəhmət çəkdiyini, nə qədər şahid xatirəsini dinlədiyini, sənədlər öyrəndiyini, Asiflə bağlı videoyazıları ələkdən keçirdiyini təsəvvür etmək çətin deyil. Axı adları, sözləri, xatirələri bu kitabda gedənlərin, habelə Asifi yaxından tanıyan adamların çoxu xoşbəxtlikdən sağdır. Kiçik bir təhrif, ehtiyatsız deyilmiş söz ömrünün beş ilini Asiflə bir yerdə Agdam səngərlərində keçirmiş sabiq döyüşçülərin qəlbini yaralaya bilərdi.

Mustafa Çəmənli yaradıcılığına çox ciddi yanaşan, sözün qədrini və qiymətini bilən və ən əsası öz mövzusu olan yazıçıdır. Uzun illər nəşriyyatda redaktorluq etməsi onda sözə olan məsuliyyət hissini təbii ki, daha da artırmişdır. O,

meyvəsini dərdiyi, bəhərini yediyi ağacın budağını qırmaq günahdır prinsipi ilə yaşayır-söz sənətinə, onun bir qolu olan kitab nəşrinə də həmin prinsipdən yanaşır.

Onun Azərbaycan Televiziyası və Radiosunun "Qızıl fond"unda 90-a yaxın musiqili-ədəbi verilişi saxlanılır. "Mənim dünyamın adamları", "İtirilmiş səs", "Səs qərib olmur", "Fred Asif", "Nəğməli xatirələr", "Muğam dünyasının Xanı", "Burdan bir atlı keçdi", "Səsin ruhu", "Mən olmayanda dostum ol", "Oxu gözəl...", "Xallı gürzə", "Sənətkar ömrünün izləri" adlı kitabların müəllifidir.

Mustafa Çəmənlinin yaradıcılığı üç xətt üzrə inkişaf edir. Öncə, o yazıçıdır. Təkcə elə "Yaddaş", "Halallıq" kimi povestləri bəs edər ki, Mustafa Çəmənli ədəbi nəsrimizdə öz şöhrətini tapsın.

Mustafa Çəmənli səriştəli jurnalistdir. Uzun illər müxtəlif nəşriyyatlarda çalışması onu püxtələşmiş nasir kimi yetişdirmişdir. Kitaba, kitabçılığa dərindən bələdliyi sayəsində qələmə aldığı "Səs qərib olmur", "Qədir Rüstəmova açıq məktub", "Oxuyan barmaqlar", "Şəlalə kimi çağlayan səs", "Simuzər", "Nəğməkar" adlı publisistik əsərləri kamil qələmin bəhrəsidir. Yazıçı dili ilə jurnalist tədqiqatları birləşərək Mustafa Çəmənlinin yaradıcılığına başqa bir möhür də vurur. Muğam ustadı Xan Şuşinskiyə, xalq artisti Şövkət Ələkbərovaya, unudulmaz ifaçımız Əbülfət Əliyevə, xanəndə Səxavət Məmmədova, opera ustası Xanlar Haqverdiyevə həsr etdiyi kitabların hər biri sənətşünaslıq namizədi, doktoru olmaq üçün kifayət edəcək sanballı monoqrafiyalardır. Mustafa Çəmənli bunları yazarkən heç vaxt ad və titul barəsində düşünməyib. Sadəcə olaraq, içinin odunu söz-söz kitablara naxışlayıb.

Ali məktəbi bitirəndən sonra Mustafa Çəmənli "Yazıçı" nəşriyyatında redaktor, klassik ədəbiyyat və folklor, nəsr şöbələrinin müdiri olmuşdur. O, on dörd il "Gənclik" nəşriyyatının baş redaktoru vəzifəsində çalışmışdır. Hazırda isə

“Təhsil” nəşriyyatında şöbə müdiri vəzifəsində işləyir. “Naşirlik sənin vəzifən, yazıçılıq, şairlik isə Allahın bağışladığı vergidir”- söyləyən qələm dostumuz həm də çox bacarıqlı və uzaqgörən naşir olub.

Mustafa Çəmənli həm də folkloru sevən, onun müəyyən nümunələrini toplamağa həvəs göstərən bir cəfakeşdir. O, ayrı-ayrı bölgələrin baməzə adamları haqqında məlumatları, eləcə də lətifələri toplayaraq nəşriyyatlarda işıq üzü görməsinə çalışıb. Yazıçı kimi Mustafa Çəmənlinin dili çox şirəli, səlis və ürəyəyatımlıdır. Əsərlərinin ideyası, məzmunu öz yerində, dil şirinliyi ilə cəlbedicidir. Hər bir əsərində personajın öz təhkiyəsi, ləhcəsi, danışıq tərzi var. İstər romanları, istərsə də publisistikası oxunaqlıdır, yaddaqalandır.

# Bölmə II
# Yubiley tədbirlərinin keçirilməsi:

Yazıçı-publisist Mustafa Çəmənlinin 70 illik yubileyi bu il respublika səviyyəsində qeyd olunur. Görkəmli yazıçının yubileyi münasibətilə respublikamızın bir çox təhsil ocaqlarında məktəblərdə, ali təhsil ocaqlarında, kitabxanalarda və s. yerlərdə yubileylə bağlı tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının geniş və maraqlı olması üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında sərgi hazırlanır. Sərgi müxtəlif başlıqlar altında keçirilir. Məsələn: "Mustafa Çəmənli-70", "Ucalığa doğru", "Görkəmli söz ustası", "Ecazkar səs" və s.

"Mustafa Çəmənli-70" adlı sərginin nümunəsini veririk:

**Başlıq:**

1. "Mustafa-Çəmənli-70"
2. Kitablarının nümayişi.
3. Görkəmli insanların yazıçı Mustafa Çəmənli haqqında söylədikləri.
4. Dövrü mətbuatda nəşr olunan məqalələrin kartotekası.
5. ***Sitat:***

   ***Hər axşam həsrət və intizarla yola saldığım günəşi səhərlər Xəzərin aynasına boylanan görəndə uzaq səfərdən sonra sahilə yan alan nəhəng bir gəmini xatırlayıram. İnsanlar da belədi, onlar da doğan və batan günəşə bənzəyirlər. Lakin hər doğulan işıq saça bilmədiyi kimi, hər dünyasını dəyişən də yenidən doğulmur.***

   ***Mustafa Çəmənli***

## Görkəmli şəxsiyyətlərin söylədikləri

1. Mustafa Çəmənli yaradıcılığına çox ciddi yanaşan, sözün qədrini və qiymətini bilən və ən əsası öz mövzusu olan yazıçıdır.

   **Əli Əmirli,**
   *Yazıçı, dramaturq*

2. Mustafa Çəmənlinin yaradıcılığı üç xətt üzrə inkişaf edir. Öncə, o yazıçıdır. Təkcə elə "Yaddaş", "Halallıq" kimi povestləri bəs edər ki, Mustafa Çəmənli ədəbi nəsrimizdə öz şöhrətini tapsın.

   **Flora Xəlilzadə,**
   *Jurnalist*

3. Mustafa Çəmənlinin "Xallı Gürzə" romanı da tarixi dövrün psixologiyasını təşrih edən bir əsərdir. Doğrudur, bu əsərdə tarixi şəxsiyyətlərin fəaliyyəti xronikal qaydada izlənilir, ancaq bu romandakı əsas qayəni heç də kölgədə qoymur. Pənah xan gözlərimiz qarşısında həm də bir insan və şəxsiyyət kimi canlanır.

   **Vaqif Yusifli,**
   *Filologiya elmləri namizədi*

4. Mustafa müəllimə xeyirxah və dəyərli yaradıcılıq yolunda uğurlar, yeni gözəl əsərlər arzulayıram. Vaxt gələcək bu əsərlərin dəyəri və qiyməti lazimi səviyyədə bilinəcək. Sadəcə olaraq, zaman öz qəhrəmanını sevib qiymətləndirə bilmir. Bunun üçün müəyyən vaxt keçməlidir. Qəhrəman özü bunu görməsə də, gələcək nəsillər görəcək.

   **Xuraman İsmayılova,**
   *Əməkdar mədəniyyət işçisi*

5. Mən belə qənaətdəyəm ki, Mustafa Çəmənlinin deməyə sözü, yazmağa mövzusu, yaradıcı arzu və diləkləri hələ çoxdur. Onun sənətə sevgisi bədii söz qədər müdrik və səs qədər mənalıdır.

**Nazif Qəhrəmanlı,**
*Filologiya elmləri doktoru*

## Kitablarının nümayişi:
























Yazıçı, publisist Mustafa Çəmənlinin yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də "Nağıl saatı"dır. Kitabxanaçı məktəb yaşlı uşaqları nağıl otağına toplayır. İlk əvvəl uşaqlara Mustafa Çəmənlinin həyat və yaradıcılığı haqqında uşaqlara dolğun məlumat verdikdən sonra kitabxanaçı "Qurban bayramı" adlı nağılı uşaqlar üçün oxuyur. Nağıl belə başlayır:
Mən babamın nəvəsi idim. Atam Qarabağ savaşında şəhid olmuşdu. Babam bu qanlı savaşda oğlunu itirib məni tapmışdı. Atam şəhid olanda iki yaşındaymışam. Mən atamın yoxluğunu beş yaşında olanda başa düşdüm. Babam hərdən mənim əlimdən tutub kəndimizin məscidinə aparardı. O, orada tay-tuşları ilə söhbətləşəndən sonra məscidin minarəsinə çıxardıq. Babam əlimdən bərk-bərk yapışırdı ki, minarənin dolama pilləkənlərində yıxılmayım. Minarənin başına çatanda babam xeyli tövşüyərdi. Mənim də alnıma tər gələrdi. Babam dəsmalını çıxarıb alnımdakı təri silərdi:
-Bura Allahın evidi,-deyərdi, müqəddəsdi, böyüyəndə tez-tez gəlib ibadət edərsən.
-Niyə baba?
-Çünki, Allah ona sədaqətli olan insanları çox sevir,-deyə babam köks ötürərdi. Sonra babam səssizcə dayanıb gözləri yaşarıncaya qədər düşmənin işğal etdiyi şəhərlərə, kəndlərə tərəf baxırdı. Bir dəfə babam əlini dağlara sarı uzadıb:
Bax, atan rəhmətlik düşmənlə orada vuruşub şəhid olub,-dedi.- Atan Vətən yolunda qurban getdi.
-Baba, atam yadıma gəlmir.
-Sən onda lap balacaydın, Allah qoysa sən də böyüyəndə igid bir oğlan olacaqsan.
Mən dağları göstərib:
-Baba, o dağların adı nədi?-soruşmuşdum.

-Bax, o uzaqdan görünən Murovdağdı, bu yaxındakı isə Şahbulaq.
-Şahbulaq nə deməkdir?
-Vaxtilə Şah Abbasın orada karvansarası olub. Qarabağ xanı Pənah xan da burada qala tikibmiş. O dağın altından həm də su çıxır, ona görə də Şahbulaq deyirlər.
-Baba, məni ora apararsan?-deyə soruşdum.
-İndi yox, Eldəniz, sonra apararam, sonra...
-Bəs haçan?
-Torpaqlarımız düşməndən azad olanda.
Babam bu sözləri deyəndə kövrəlmişdi. Mən onda babamın nə üçün kövrəldiyinin səbəbini başa düşməmişdim.
Bir gün babam bazardan qapqara bir qoç alıb gətirmişdi. Yamanca qəşəng idi. Təpəl, ayaqları ağ bir qoçdu. Babam dedi ki, bu qoçu sənin üçün almışam, Qurban bayramında kəsərik. Mən mərcan gözlü, qıvrım tüklü, təpəl qoçu göstərib:
-Baba. Qurban bayramı nədi? –soruşdum.
Babam başımı sığallayıb alnımdan opmüşdü:
-Qurban bayramında deyərəm.
-Bu qoçun adı nədi?
-Adı yoxdur. İstəyirsən bunun adını Qaşqa qoyaq.
-Qaşqa nədi, baba?
Babam dedi:
-Bax, Eldəniz, alnında ağ xalı olan qoyun-quzuya, ata qaşqa, ayaqlarında ağ zolaq olanlara isə səkil deyirlər. Başa düşdün?
-Bəli, -dedim və Qaşqanı bağçamıza apardım.
Mən hər gün Qaşqanı yemləyirdim, su içirirdim. Məktəbə gedəcəyim günü, həm də Qurban bayramını səbirsizliklə gözləyirdim.
Bir gün babam evə sevinclə qayitdı. O, mənə məktəbli forması, kitab-dəftər almışdı.
Səhəri gün tezdən babam, nənəm, anam məni geyindirib məktəbə apardılar. Babam, Qaşqa arxamızca gəlməsin deyə, iplə

onu ağaca bağlamışdı. Qaşqa qoxumu alıb arxamca dartınıb, yazıq-yazıq mələyirdi.
Bir gün babam Qaşqanın boğazına qırmızı lent bağlayanda səbəbini soruşdum. Babam:
-Sabah Qurban bayramıdı, onu kəsəcəyik, sən də yeddi qonşuya pay aparacaqsan.
-Baba, istəmirəm mənim Qaşqamı kəsəsən,-dedim.
Babam çombəlib gözümün içinə baxdı:
-Elə demə, Allaha xoş getməz.
-Niyə kəsirsən, Qaşqa yazıq deyil?
-Eldəniz, Allah belə buyurub, niyyət eləmişdim. Niyyətim qəbul olunub,-dedi. Mən Allahı aldada bilmərəm...Bilirsən keçmişdə İbrahim Peyğəmbərə Allahdan səda gəlib ki, səhər yeganə oğlu İsmayılı aparıb Allah yolunda qurban kəssin. Səhər açılır, İbrahim Peyğəmbər oğlu İsmayılı götürüb Allah yolunda qurban kəsməyə aparır. İsmayıl da Allahdan gələn bu əmrə tabe olub, atasına etiraz eləmir. İbrahim Peyğəmbər bıçağı çıxarıb oğlunun boğazına çəkmək istəyəndə Allahdan səda gəlir ki, əl saxla. Sənin Tanrıya olan sədaqətini sınamaq istəyirdim. Mən sənə bir qoç göndərdim, onu kəsib yoxsullara paylayarsan.
İbrahim Peyğəmbər Allaha dua edib ayağa qalxır, görür ki, arxada bir qoç dayanıb. O, qoçu kəsib kasıblara, qonşulara paylayır. Bax o zamandan müsəlmanlar hər il Qurban bayramı keçirir. Qoç kəsib qohuma-qonşuya paylayırlar. Buna İsmayıl qurbanı da deyirlər. Mən bir də sənə orta məktəbi bitirib alı məktəbə qəbul olanda qurban kəsəcəm.
Babam sözlərini bitirib Qaşqanı başıma hərlədi, ovcundakı duzu ona yaladıb kəsmək üçün yerə yıxanda evimizin arxasına qaçdım.
Bir azdan məni çağırdılar, babam barmağını qana batırıb alnıma xal qoydu. O, sonra içində yeddi pay olan məcməyini mənə verdi ki, yeddi qapıya gedib qonşulara paylayım. Mən məcməyini götürüb getdim. Hər kəs məndən payı alanda alqış edib deyirdi:
-Eldəniz, qurbanın qoyun olsun, Allah səni qorusun!

O gün mən qonşularımızın məhəbbətini qazanmışdım. Babam mənə Allaha sədaqətli, insanlara qarşı mərhəmətli olmağın yolunu göstərmişdi.

Nağıl bitəndən sonra kitabxanaçı uşaqlara nağıl haqqında bir çox suallar ünvanlayır.

Mustafa Çəmənlinin 70 illik yubileyi münasibətilə kitab müzakirəsinin keçirilməsi məqsədəuyğundur.

Tədbirdə yazıçı-publisist Mustafa Çəmənlinin "Mübariz" adlı povestinin müzakirəsi keçirilir. Kitabxanaçı girişi Mustafa Çəmənlinin sözləri ilə başalyır:

***"Biz ədəbiyyata gələndə lirik mövzuda düşünürdük. Sonradan başımıza bu hadisələr gəldi. Qarabağda baş verənlər sanki bizim yaradıcılığımızın sükanını dəyişdi. Mən inanmıram ki, söz deməyi, qələm tutmağı bacaran kəs faciələrimizdən yazmasın. Əksinə, yazılıb, yazılmaqda da davam edir".***

Bu kitab xalqımızın igid oğlu, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun əziz xatirəsinə müəllifin və "Təhsil" nəşriyyatının töhfəsidir. Yazıçı Mustafa Çəmənli Azərbaycanın Milli Qəhrəmanı Mübariz Ağakərim oğlu İbrahimovun iyirmi iki illik ömür yolundan bəhs edən bu povestində onun daxili aləmini, həyəcanlarını, mənəvi dünyasında baş verən oyanışı, onu daim narahat edən, intiqama səsləyən səbəbləri bədii detallarla açıb göstərməyə çalışmışdır.

Gənc ömrü, saglam və qüvvətli vücudu, boy-buxunu, qeyri-adi yaraşığı ilə bu dünyada xoşbəxt, fəqət, adi bir ömür sürə bilərdi. Mübariz, amma o bunu istəmədi, fanı dünyanın yalan ləzzətinə uymadı. O, süurlu şəkildə, düşünərəkdən qəhrəmanlıq yolunu seçdi, şəhidlik "şərbətini içdi", adını Vətən duyğusu olan hər bir azərbaycanlının ürəyinə iti bıçaqla, ağrıyla yazdı, əbədi həkk elədi. Bir çoxlarının partizan hərəkatı yaratmaq söhbətlərini o, təbliğatsız, müzakirəsiz, mətbuatsız və telereklamsız həyata keçirə bildi, heç kəsdən məsləhət almadan, icazə istəmədən.

Mustafa Çəmənli bu misilsiz şücaətin yaratdığı təsirin səngiməsini gözləmədən, isti-isti qələmə aldığı bu çox faydalı

kitabda Mübarizin iyirmi iki illik cavan həyatını, keçirdiyi şərəfli şəhidlik yolunu addım-addım izləmiş, onun bir qəhrəman kimi yetişməsi, bir mərd, cəsarətli gənc, qorxmaz kişi kimi formalaşması məqamlarını məharətlə, eyni zamanda səmimi ürək yanğısı ilə göstərə bilmişdir. Mübarizin ata-baba ocağından başlanan qəhrəmanlıq dastanı elə ata-baba ocağında da bitir. O ocaqda ki, orda daima var olan müqəddəs ruhlar dolaşır. Vətənin azadlığı uğrunda şəhid olmağı hər bir şeydən üstün tutan qəhrəman oğulun belə bir halal ailədə, mübarək bir ocaqda yetişməsinin qanunauyğunluğunu oxucuya çatdıran yazıçı, "hər kəs öz mühitinin yetirməsidir" fikrini qəsdən qabardır.
Şübhəsizdir ki, Mübarizin mənfur düşmənə dağ çəkən misilsiz qəhrəmanlığı saysiz-hesabsız məqalələrə, sənədli, bədii əsərlərə, kinofilmlərə, səhnə əsərlərinə material verəcək bu gələcəyin işidir, amma çox yaxşıdır ki, Mübariz haqqında yazılan ilk kitab məhz peşəkar nasir və ustad publisist qələmindən çıxdı, çünki Vətən, vətənpərvərlik haqqında yazılan hər bir ədəbi əsər ancaq yüksək bədii dəyəri olanda fayda verə bilər.

Tanınmış publisist, naşir Mustafa Çəmənlinin anadan olmasının 70 illik yubileyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında "Qan yaddaşımızı oyadan roman" adlı icmal da keçirmək olar. İcmala şair və yazıçılarla yanaşı, ədəbiyatşünasları, tənqidçiləri və oxucuları dəvət etmək olar. İcmalı kitabxanaçı giriş sözü ilə belə başlayır:

Pənah xan Azərbaycan tarixində parlaq iz qoymuş şəxsiyyətdir. O, XVIII əsrin əvvəllərində Nadir şahın sarayından qaçaraq bir müddət Qəbələ, Şəki, Qarabağ dağlarında daldalanmış, az sonra Qarabağ xanlığı yaratmış, öz hakimiyyəti dövründə Bayat, Şahbulaq, Pənahabad (Şuşa) şəhər-qalalarının əsasını qoymuşdur.

Tarixi qaynaqları bədii təxəllüyünə söykək seçən müəllif görkəmli sərkərdə, müdrik dövlət xadimi, Pənah xanın zəmanəyə diz çökməyən obrazını yaratmışdır. Xalqın dövranı qara gələndə zaman onun böyük oğullarını xallı gürzə timsalında

udub məhv edir. Roman bu qayə ilə zaman və şəxsiyyətin faciəsi fonunda oxucunun qan yaddaşını oyadır, onu daxili düşüncəyə və yaşanmaya sövq edir.

Həmişə yeni bir roman oxumamışdan öncə fikirləşirik ki, görəsən, zamanın hansı həqiqətləri ilə üzləşəcəyik. Oxuduğumuz bu əsər bizə nə verəcək, dünyanın indiki dramatik və faciəvi mənzərəsi ilə həmin roman arasında nə kimi səsləşmə tapacağıq?

Mustafa Çəmənli bu əsəriylə xalqımızın son illərdə keçirdiyi ağır faciələri qələmə alıb. Əsər əsasən Qarabağ xanlığının əsasını qoyan Pənah xanın həyatına həsr olunub.
Son iki-üç əsrdə Azərbaycan tarixində baş verən ən kəskin hadisələr sanki bir-birini təkrar edir. İki əsr, iki əsr yarım bundan əvvəl də Azərbaycan xanlıqları, daha doğrusu, xanları birləşmək arzusunda olub, son anda birləşə bilmirdilər və birləşmək əvəzinə bir-birinə qənim kəsilirdilər. O zaman Azərbaycan xanlıqlarının hər biri özünə görə agıllı, tədbirli, döyüşkən idilər. İki əsr, iki əsr yarım sonra da özünə görə ağıllı, siyasətçi, tədbirli rəhbərlərimiz birliyə çağıra-çağıra birləşə bilmirdilər. Və hər iki halda arxalarınca apara bilmədikləri xalqı uçuruma, faciəyə sürükləmişlər.

Görün hadisələr bir-birinə necə oxşayırdı ki, bədnam qonşularımız hətta Pənah xan dövründə də məkrli niyyətlərindən əl çəkmirdilər. Cəmi beş kiçik məliklikdən ibarət olan bir ərazidə ermənilər o vaxt da torpaqlarını genişləndirmək, dövlət yaratmaq iddiasına düşmüşdülər. Lakin o zaman sayca çox az idilər. İran erməniləri hələ bu torpağa axışmamışdı. Həmin o erməni məliklərindən biri Məlik Ulubad Qara Keşiş babasından qisasçılıq dərsi alıb bütün məlikləri Pənah xanın üzərinə qaldırır. Bəs sonu?

“Pənah xan məliyin nizəyə taxılmış kəsik başını görəndə təzədən qəzəbləndi. Məliyin qana bulaşmış saqqalı sifətinə, papağını itirmiş daz başına, qapanmamış, harasa baxan (əslində,

Pənah xana baxırdı) gözlərinə baxdı və üzünü hələ də qılınclarını qına qoymamış qoşununa tutdu:
-Bunların,-əliylə məlul-müşkül dayanmış məğlubları göstərdi, kəsilmiş başlarından burada, bax bunların gözlərinin qabağında bir minarə qurun,-susdu. Sonra:-Lap axırda Məlik Ulubabın başını qoyun. Qoy mənim üzümə ağ olan, torpağımda ağa olmaq fikrinə düşənlərə ibrət dərsi olsun".
Heyif ki, Pənah babamızın bu ibrət dərsi soydaşlarını, ondan sonrakı nəsilləri də ayıltmadı.

"Xallı gürzə" romanında tarixi faktlar və sənədlər əsasında erməni gürzələrinin ara-sıra başlarını qaldırıb torpağımıza doğru sürünmələri və həmişə də başlarının əzilib ovxalandığı təsirlidir, ibrətli hadisələrdir. Azərbaycan xanlarının bir-birilə düşmənçilik münasibətləri erməni məliklərini coşdurur, Qarabağda möhkəmlənmək, gözəl torpaqları ələ keçirmək arzularını şiddətləndirir. İndi məlum olur ki, (bunu "Qarabağnamə"lər də təsdiq edir), Qarabağ xanlığına qarşı bütün baş qaldıran münaqişələrin alovlandırıcısı onlar imiş. Şəki xanı Hacı Çələbini də Pənah xana qarşı qaldıran erməni məlikləri olur. Məhəmməd Həsən xan Qacarın, Fətəli xan Əfşarın da Qarabağa hücumlarında bələdçilik edənlər erməni məlikləri idi. Bəli, iki əsr bundan əvvəl də birləşə bilmədik.

"Qarabağnamə"lərdən məlumdur ki, Pənah xan əslən Sarıcalı tayfasındandır. Onun ata-babası da çox dövlət və nüfuz sahibi olmuşlar. Nadir şah öz hakimiyyətini qüvvətləndirmək üçün Qarabağdan da seçmə igidlər toplamış, İbrahimxəlil ağanın (Pənah xanın atası) böyük oğlu Fəzləli bəyi özünə naib etmişdi. Ancaq "Allahın qəzavü-qədərindən və rüzgarın gərdişindən" Fəzləli bəy öldürülür. Nadir şah onun kiçik qardaşı Pənahı hüzuruna çağırır, sarayda eşikağası vəzifəsinə təyin edir. Və Pənah xan tapşırılan bütün işləri tam sədaqətlə yerinə yetirir. Lakin başa düşür ki, qardaşının ölümündə Nadir şah günahkardır, nə qədər gec deyil, qaçmaq lazımdır. "O, Qarabağa gəlib öz uca nəslinə mənsub bir neçə nəfəri özünə yoldaş etdi.

Dövlətinin aləmi işıqlandıran günəşin doğmasina müntəzir və rəyasət gözəlinin vüsalına çatmağı, aramsız gözləyərək gəzib dolanırdı. Nadir şah Azərbaycan və Şirvan xanlarına qəzavüqədər kimi nüfuzlu olan çoxlu hökmlər yazdı. Bu hökmləri sürətli çaparlar vasitəsilə göndərdi ki, Pənahəlini tutub onun hüzuruna göndərsinlər. Lakin o rəşadət səmasının qızıl quşunu tora salıb tutmaq mümkün və müyəssər olmadı".

"Xallı gürzə" romanı məhz bu hadisələrdən sonrakı dövrü təsvir edir: Pənah xan öz səyi, şəxsi igidliyi, ağlı ilə tezliklə böyük şöhrət qazanır, 1747-ci ildə Nadir şahın ölümündən sonra isə Qarabağ xanlığının əsasını qoyur. Və bundan sonrakı hadisələr: xanlığın öz sərhədlərini möhkəmlətməsi, yeni ərazilər zəbt etməsi, digər xanlıqlarla münasibətləri, Pənah xanın Bayat qalasını, Şahbulaq, sonra Şuşanı inşa etməsi, erməni məliklərinin məkrli hərəkətləri, Məhəmmədhəsən xan Qacarın, Fətəli xan Əfşarın Qarabağa hücumu Həsən xan Qacarın, Qarabağa hücumu və biabırçı məğlubiyyətləri, nəhayət, Pənah xanın ölümü... Əgər "Qarabağnamə"lərə diqqət yetirsək, bu hadisələrin eyni xronologi ardıcıllığını həmin mənbələrdədə izləyə bilərik.
Hər bir tarixi roman, əgər belə demək mümkünsə, yaşanılan tarixin bədii-fəlsəfi dərkidir.

Mustafa Çəmənlinin "Xallı Gürzə" romanı da tarixi dövrün psixologiyasını təşrih edən bir əsərdir. Doğrudur, bu əsərdə tarixi şəxsiyyətlərin fəaliyyəti xronikal qaydada izlənilir, ancaq bu romandakı əsas qayəni heç də kölgədə qoymur. Pənah xan gözlərimiz qarşısında həm də bir insan və şəxsiyyət kimi canlanır.

İki qüdrətli, qüvvətli əl bir-birinə sarmaşdı, Pənah xan Heydərqulu xana, Heydərqulu xan isə Şahverdi xana uzatdı. Şəki, Şirvan, Qarabağ, Gəncə, Naxçıvan, Qaradağ qol-qola girdilər, elə bil başları buludlara dəyən dağlar sıralanmışdı. Adama elə gəlirdi ki, onlar min illər boyu beləcə çiyin-çiyinə, kürək-kürəyə verib keçilməz, alınmaz qala təki duracaqlar.

Pənah xan ellərdən əllərinə axan qüvvətdən, Şəkinin, Şirvanın, Qarabağın, Qaradağın, Naxçıvanın, Gəncənin birləşmiş qoşununun əzəmətini görüb ehtizaza gəldi və var səsiylə bağırdı:- Var olsun birliyimiz!
Çiyin-çiyinə dayanmış qoşun əhli qılıncını sıyırdı:
-Var olsun birliyimiz!
-Var olsun xanlarımız!
Dağlar əks-səda verdi:
-Var olsun!
-Var olsun!

Görkəmli yazıçı Mustafa Çəmənlinin yaradıcılığı ilə oxucuları yaxından tanış etmək üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasında ədəbi-bədii gecənin keçirilməsi daha vacibdir. Kitabxanaçı ədəbi-bədii gecəyə iki ay qabaqcadan hazırlaşmalıdır. İlk əvvəl tədbirin ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci hissədə isə yazıçının əsərlərindən, hekayə və povestlərindən səhnəciklər göstərilir. Tədbirdə şair və yazıçılar, ədəbiyyat müəllimləri iştirak edir. “Görkəmli söz ustası” adlı ədəbi-bədii gecənin ssenarisini nümunə üçün veririk. Səhnədən Mustafa Çəmənlinin portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir.

***Mən nağıllarda olduğu kimi, yad qapıları döymədim. Bilirdim ki, tanımadığım yad qapıları döysəm:-Kimdir?-sualını mütləq eşidəcəm. Mən bilirdim ki, Allah qonağı-deyəndən sonra nağıllar yalan olacaq. Çünki o nağıllardakı -Allaha da qurban olum, qonağına da-söyləyən insanları zaman-zaman elə qonaqlar öz yaramaz istəkləriynən qorxuzub, qapıları üstümüzə bərk-bərk bağladıblar. Ona görə də mən nağıllarda olduğu kimi yad qapıları döyməyəcəm. Qoy nağıllar elə nağıl olub qalsınlar.***

***Mustafa Çəmənli***

*Aparıcılar səhnəyə daxil olur:*

**I Aparıcı:** Hörmətli tədbir iştirakçıları! Bu gün yazıçı, publisist öz roman, povest və hekayələri ilə çoxdan oxucuların rəğbət və məhəbbətini qazanmış Mustafa Çəmənlinin 70 illik yubileyini qeyd etmək üçün toplaşmışıq. Gəlin birlikdə Mustafa Çəmənlinin həyat və yaradıcılığına nəzər salaq.

Elə yazıçı var ki, öz yaradıcılığı ilə keçdiyi sənət yolu barədə danışmağı sevmir, hətta tənqidçilərin də onun haqqında söylədiklərinə, yazdıqlarina biganədir. Belə fikirləşir ki, ona oxucusu ilə ünsiyyət kifayətdir. Bəzən tənqiddə də bu yazıçıya qarşı biganəlik, səbəbi məlum olmayan bir soyuqluq hökm sürür. Amma illər keçir. Zaman özü ədalətli bir münsif kimi hər şeyə qiymət verir. Yazışı-publisist Mustafa Çəmənli də beləcə, tənqidin nəzərindən uzaq, lakin heç bir tərifə ehtiyac duymayan, sakitcə oturub əsərləriylə baş-başa verən yazıçılardan biridir.
Mustafa Çəmənli 1947-ci il sentyabrın 10-da Agdam rayonunun Çəmənli kəndində anadan olub. Birinci sinfi elə öz kəndlərində bitirsə də, orta təhsilini Mingəçevir şəhər məktəbində başa vurub. Əsgəri xidmətini başa vuran Mustafa Çəmənli təhsili davam etdirmək üçün Azərbaycan Dövlət Universitetinin (BDU) jurnalistika fakültəsinə daxil olub və bu ixtisas üzrə təhsilini başa vurub.

Mustafa Çəmənlinin ilk “Ləpirlər” adlı hekayəsi 1973-cü ildə “Mingəçevir işıqları” adlı qəzetdə dərc olunub. Mustafa Çəmənli 12 kitabın müəllifidir. Ailəlidir. Bir oğlu, bir nəvəsi var. Oxucuların “Burdan bir atlı keçdi”, “Xallı gürzə”, “Səs qərib olmur”, “Oxu gözəl...”, “İtirilmiş səs”, “Muğam dünyasının Xanı”, “Nəğməli xatirələr” və digər bədii-publisistik əsərlərin müəllifi kimi tanıdığımız Mustafa Çəmənli, sən demə, əsl ovqat adamı imiş. Sənət adamlarına böyük rəğbəti olan yazıçı həm yaradıcılığından, həm də yaşantılarından bəhs edərək deyir:

“Ömrün bu pilləsinə heç də asanlıqla gəlib çıxmamışam. Gənclik illərimdən bu yana əzablı, çətin günlərim çox olub. Həyatımı halal zəhmətim bahasına qurmuşam. Sənətimdən

kənar pul gətirən çox sahələrdən iş təklifləri alsam da, yaradıcılıq azadlığımı məhdudlaşdıracaq hər təklifdən imtina etmişəm. Halbuki o işlərin arxasınca getsəydim, indi üzləşdiyim çox qayğılardan uzaq olardım. Yəni yalnız hekayə, roman yazmaqla yaradıcılığımı məhdudlaşdırmazdım. Arxivlərdə araşdırmalar aparmaq, tarixi şəxsiyyətlərlə "görüşmək" zaman tələb edir. Nədənsə, həmişə mənə elə gəlir ki, bunları mən etməsəm, kimsə etməyəcək. Buna görə də bədii əsərlərlə yanaşı, yaradıcılığımın bir hissəsini sənət adamları haqqında yazdığım kitablar təşkil edir.
Oxucular səhnəyə daxil olur. Mustafa Çəmənlinin deyimlərindən bir neçəsini söyləyirlər.
***Mən ONA içimdəki gəncliyimin gözü ilə, O isə qəlbimdə gizlənmiş gəncliyi görmədiyindən üzümdəki QOCALIĞA baxırdı.***
***Birisi ölməyə gedirdi, qoymadıq. Amma sonra o özü bizi axmaqlığıyla öldürdü.***
***Sən elə zənn etmə ki, mən tənhayam, yox, ətrafımdan çəkilənlər yenə mənimlədi-ancaq xəyalımda.***
**II Aparıcı:** Mustafa Çəmənlinin yuxarıda qeyd etdiyimiz kimi, yaradıcılığı geniş və çoxşaxəlidir. Onun "Meşə yeri" hekayəsində çox maraqlı mövzulara toxunulmuşdur. Meşənin qirilması, insanın təbiətə laqeyd münasibəti, nadanlıq ucbatından təbiətin məhv olması yazıçının bütün bunlara biganə qala bilməməsi hekayənin əsas qayəsini təşkil edir.
Vətəndən qürbətdə insanların necə də artıq adama çevrilməsi, hamı tərəfindən unudulması, adamların mənəvi tənhalığından bəhs edən "Səs qərib olmur" hekayəsində acı taleli bir xanəndənin həyatından fraqmentlər verilib. Qürbətdə kimsəsiz, əlsiz-ayaqsız bir qocada vətəninə qarşı böyük məhəbbət, dərin ehtiram hissi var, hər vəchlə vətəninə dönmək istəyən bu qoca "vətənin iyini" doğan günəşdən, "bir udum" havadan alır. Taleyin hökmü ilə qürbətə düşən bu qoca xanəndə səsinin "sarbanı" olmuş, dünyanı gəzib dolanmış, hər yerdə özünə

saysız-hesabsız pərəstişkar qazanmışdır. Lakin uzun illər qürbətdə olması qocada belə bir fikir oyadır ki, yəqin onu vətənində unudublar. O, öyrənəndə ki, vətənində onun oxuduğu mahnıları, muğamları lentə köçürüb saxlayırlar, sevinci aşıb-daşır. Əziz xatirə kimi gəncliyindən yadigar qalan valları qastrola gəlmiş tarzənlə vətəninə göndərir. Vətən məhəbbətinin böyüklüyü, ülviliyi bu hekayədə qabarıq şəkildə özünü göstərir. Əsərdəki dərin lirizm, gərginliklə dolu olan dialoqlar oxucunun qəlbini riqqətə gətirir.

Oxucular səhnəyə daxil olur: Mustafa Çəmənlinin Deyimlərindən söyləyirlər.

***Kin də bordağa bağlanmış cöngə kimidir, ipi açılanda sahibini tanımır.***

***Öyrənmişdi hər şeyi pulla ələ almağa, ancaq qapısını əcəl döyəndə puluna yaxın duran olmadı.***

***Sən elə zənn etmə ki, mən tənhayam, yox, ətrafımdan çəkilənlər yenə mənimlədi-ancaq xəyalımda.***

***Həyatda elə insanlar var ki, öləndən sonra da problemlər onlardan əl çəkmir.***

***Gözəlliyi görən gözlər gözəldir. Mən neyləyim ki, sən ancaq pis şeyləri görürsən.***

***Səhər tezdən bal arıları çəmən çiçəklərini öpüşlərə qərq eləmişdilər. Arılar nə qədər azad, nə qədər məsud idilər.***

***Mən indi bildim ki, həyat beşikdən qəbrə qədər imiş. Anam məni gülə-gülə beşiyə, mən isə ağlaya-ağlaya onu qəbirə qoydum.***

***Sözündə böyük idi, əməlində bapbalaca.***

***İnsan öz keçmişinin təkrarıdır.***

***Qadının gözü ağlından itidir.***

***Adam var özü böyükdür, adam var sözü.***

***Səbəb səbətə, səbət qəfəsə çevrilə bilər.***

***Gəlişin bayramdı, gedişin faciə.***

***I Aparıcı:*** Əziz tədbir iştirakçıları! Bu gün biz bir daha yazıçı Mustafa Çəmənlinin yaradıcılığı ilə sizləri yaxından tanış etdik. Onun qələmindən süzülən hər bir yazı, hər bir sətir ilə yaxından tanış olduq.

Hörmətli yazıçı Mustafa Çəmənli! Sizi anadan olmanızın 70 illiyi münasibətilə bir daha səmimi qəlbdən təbrik edir, sizə cansağlığı, uzun ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. Arzumuz budur ki, qələminiz həmişə iti olsun!

**Ədəbiyyat siyahısı:**

***ƏSƏRLƏRİ***

***Kitablar***

Bülbül. - Bakı : Çağdaş As, 2012. - 12 s.

Burdan bir atlı keçdi. - Bakı : Zərdabi LTD, 2014. - 248 s.

Çahargah : Nağıl. - Bakı : Beşik, 2008. - 32 s. - (Mən və mənim dünyam = Milli musiqimiz).

Fred Asif : Sənədli roman. - Bakı : Təhsil, 2010. - 214 s.

Xallı gürzə : Tarixi roman. - Bakı : Kitab klubu, 2016. - 392 s.

"Leyli və Məcnun" 100 il səhnədə. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008. - 432 s.

Mübariz : Povest. - Bakı : Təhsil, 2010. - 96 s.

Nəğməli xatirələr. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2007. - 184 s.

Ölüm mələyi : Tarixi roman. - Bakı : MHS-poliqraf, 2012. - 296 s.

Ruhların üsyanı : Povestlər, hekayələr, esselər, deyimler, müsahibələr. - Bakı : Adiloğlu, 2007. - 320 s.

Şəmsəddin Eldəniz : Nağıl. - Bakı : Beşik, 2009. - 34 s. - (Mən və mənim dünyam).

Sənət hekayələri. - Bakı : Aspoliqraf, 2014. - 568 s.

Sənətkar ömrünün izləri. - Bakı : Adiloğlu, 2006. - 128 s.

## *DÖVRİ MƏTBUATDA*

### *Bədii əsərlər*

Xaqani Şirvani : hekayə // Savalan. - 2014. - 10-13 yanvar. - № 1. - S. 3;8.

Qurban bayramı : hekayə // Savalan. - 2016. - 13-15 dekabr. - № 56. - S. 3.

Ölüm mələyi : tarixi roman // Azərbaycan. - 2012. - № 4. - S. 109-156. ; № 5. - S. 86-143. ; № 6. - S. 10-72.

Ruhların üsyanı : povest // Azərbaycan. - 2008. - № 5. - S. 99-134.

Şələ ; Hikkə ; Söyüd ağacı əkəydi və b. hekayələr // Mədəni Həyat . - 2014. - № 5. - S. 36-37.

### *Məqalələr*

Atabəy Məhəmməd Cahan Pəhləvan və İnanc xatun : "Məşhur kişilər və xanımları" kitabından // Mədəni Maarif. - 2010. - № **3**. - S. 68-71. - Əvvəli jurnalın 2009-cu il 11, 12-ci nömrələrində dərc edilmişdir.

Atabəy Şəmsəddin Eldəniz və Möminə xatun : "Məşhur kişilər və xanımları" kitabından // Mədəni-maarif. - 2009. - № 12. - S. 75-76.

Bu işıqlı dünyada... : musiqişünas Firidun Şuşinski haqqında // Mədəni Həyat . - 2014. - № 4. - S. 72-75.

Həkim-bəstəkar // Mədəni Həyat. - 2013. - № 4. - S. 79-81.

Xan qızı : Xurşudbanu Natəvan - 180 // Azərbaycan. - 2012. - 15 avqust. - № 181. - S. 7.

İlk Azərbaycan rəqs ansamblı // Qobustan. - 2009. - № 3. - S. 39-46.

İşıqlı şəxsiyyət : azərbaycanın xalq artisti, bəstəkar Süleyman Ələsgərov haqqında // Mədəni Həyat . - 2014. - № 7. - S. 41-43.

Klassik operanı yaradanlar // Mədəniyyət. - 2008. - 28 avqust. - S. 10.
Qarabağın tacı Şuşa : şuşanın işğalından 20 il ötür // Xalq qəzeti. - 2012. - 9 may. - № 101. - S. 13.

Qurban bayramı : hekayə // Savalan. - 2013. - 21-23 may. - № 35. - S. 3.

Leyli rolunun əvəzsiz ifaçısı : Rübabə Muradova // Mədəni Həyat. - 2013. - № 3. - S. 42-43.

Məhəbbət və eşq : "Məşhur kişilər və xanımları" kitabından // Mədəni-maarif. - 2009. - № 11. - S. 70-76.

Müslüm Maqomayevi xatırlarkən // Mədəni Həyat. - 2013. - avqust. - № 8. - S. 64-69.

O illərin nəğmələri : Əfrasiyab Bədəlbəyli // Mədəni Həyat. - 2013. - № 7. - S. 26-32.

Sənədlərin şahidliyi // Mədəniyyət. - 2008. - 21 fevral. - S. 5.

Sənədlərin şahidliyi : Müğənni İsmayıl Bəşir oğlu Hüseynov haqqında (1914 – 1937) // Mədəniyyət. - 2008. - 22 fevral. - S. 7.

Son görüş : Əbülfət Əliyev haqqında // Qobustan. - 2013. - № 2. - S. 14-20.

Üç tale, üç bəstəçi : xanəndə Xosrov Fərəcov haqqında // Qobustan. - 2013. - № 4. - S. 48-53.

## HAQQINDA

**Əmirli Ə.** Əllidən sonra keçən on ildə : Mustafa Çəmənli - 60 // Ədəbiyyat qəzeti. - 2007. - 31 avqust. - S.4.

**Xəlilzadə F.** Dünya duracaq yer deyil... : Mustafa Çəmənlinin "Ölüm mələyi" əsəri haqqında düşüncələrim // Mədəniyyət. - 2013. - 24 may. - № 37. - S. 13.

**Xəlilzadə F.** Ucalığa doğru : Publisist Mustafa Çəmənli haqqında // Azərbaycan. - 2007. - 21 sentyabr. - S.7.

**Məmmədova, Təranə.** Qələm adamı : yazıçı-publisist Mustafa Çəmənli haqqında // Mədəniyyət. - 2010. - 4 avqust. - № 53. - S. 7.

**Şirinov E.** Nədənsə, 60 rəqəmindən qorxuram : Mustafa Çəmənli // Təzadlar. - 2207. - 11-18 sentyabr. - S.13.

**Vahid T.** Gerçək "Sənət hekayələri" // Naşir. - 2015. - № 1. - S. 42-43.

**Ucalığa dogru**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 19
Çapa imzalanmışdır:08.05.2017
Tirajı:100
Pulsuz